Azərbaycan | Risklərin İdarə olunması | Aprel 2023



# Mart ayı üçün kiber və texnologiya xəbərləri

## Azərbaycan

### Milli informasiya resursları ələ keçirilib

Bir çox Azərbaycan "Youtube" kanalları kiber hücumlara məruz qalmışdır. Azərbaycan İnternet Forumunun məlumatına görə, statistikaya əsasən, son zamanlar milli resurslarımıza qarşı bu tip kiberhücumların sayı xeyli artıb.

Mənbə: xeberler.az 3 Mart, 2023

### Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti yeni dələduzluq üsulları aşkar edib

Qurum qeyd edir ki, son araşdırmalara əsasən, fırıldaqçılar tərəfindən kart istifadəçilərinin pul vəsaitlərinin yeni sxem əsasında ələ keçirilməsi müşahidə edilir.

Aşkarlanan üsulda SMS məlumatlandırma və sosial şəbəkələrdə olan hesablar üzərindən kart istifadəçilərindən iş yeri ilə təmin edilmə və ya virtual satışdan əlavə gəlir mənbəyinin formalaşdırılması məqsədilə ilk növbədə müvafiq internet səhifədə qeydiyyatdan keçmək istənilir. Qeydiyyatdan keçən kart istifadəçilərinə məbləğə görə faiz gəliri təqdim edən müxtəlif xidmət paketlərinin əldə edilməsi təklif edilir. Lakin kart istifadəçiləri iştirakçı olaraq ödədikləri pul vəsaitləri müqabilində sonradan hər hansı bir xidmət əldə edə bilmirlər.

Mənbə: xeberler.az 10 Mart, 2023

## Azərbaycan qlobal kibertəhlükəsizlik konfransında təmsil edilib

Cari ilin 14 -16 mart tarixlərində Birləşmiş Ərəb Əmirliyinin Dubay şəhərində "GISEC Qlobal Kibertəhlükəsizlik Konfransı" keçirilib.

Konfransda Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin (XRİTDX) təmsilçisi "İnformasiya təhlükəsizliyinin təkamülü – saxta domenlərin monitorinqi" təqdimatı ilə çıxış etmişdir. Təqdimatda informasiya təhlükəsizliyinin təmin edilməsi üçün texnologiya, üsul və vasitələrin keçdiyi təkamül yolu, eləcə də XRİTDX-nin Kompüter İnsidentlərinə qarşı Mübarizə Mərkəzinin (CERT.gov.az) saxta domen təhdidləri ilə mübarizə təcrübəsi tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Mənbə: xeberler.az 16 Mart, 2023

## Daxili İşlər Nazirliyi kiberdələduzlarla bağlı vətəndaşlara müraciət edib

Sosial şəbəkələrdən istifadə edilməklə müxtəlif kiberdələduzluq əməllərin törədilməsi hallarının getdikcə çoxalması müşahidə olunmaqdadır.

DİN bildirir ki, sosial şəbəkə səhifələrində ölkənin tanınmış şəxslərinin və şirkətlərinin ad və loqolarından istifadə edilməklə saxta elektron lotoreya oyunlarında, mükafat fondu olan müsabiqələrdə böyük məbləğdə pul uduşunun olması, müvafiq mükafatın rəsmiləşdirilməsi üçün uduşun müəyyən hissəsinin təqdim olunan bank hesabına köçürülməsinin zəruriliyi qeyd olunur. Deyilən vədlərə inanan bəzi insanlar isə bundan sonra kiberdələduzların qurbanına çevirilirlər.

Mənbə: xeberler.az 18 Mart, 2023

## Azərbaycanda Kibertəhlükəsizlik Mərkəzi yaradılıb

Ölkədə getdikcə artan kibertəhlükəsizlik çağırışlarına cavab olaraq, azərbaycanlı bir şirkətlər qrupunun dəstəyi ilə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi İsrailin texnologiya üzrə qabaqcıl təhsil müəssisələrindən biri ilə birgə Azərbaycan Kibertəhlükəsizlik Mərkəzini təsis edib.

İsrailin peşəkar müəllim heyəti Azərbaycana gələrək təlim iştirakçılarını ən son kibertəhlükəsizlik təhdidlərini, tendensiyaları və ən yaxşı təcrübələri əhatə edən bilik və bacarıqlarla təmin edəcəklər. Mərkəzdə ən müasir texnologiya və avadanlıqlarla təchiz olunmuş sinif otaqları, təlim otaqları, simulyasiya otaqları və laboratoriyalar yaradılıb.

Mənbə: xeberler.az 28 Mart, 2023

## Azərbaycanda internet provayderlərinin uçotuna başlanılıb

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyi (İKTA) internet telekommunikasiya xidməti göstərən operator və provayderlərin, o cümlədən host provayderlərin uçota alınmasına başlayır.

Bildirilir ki, "Telekommunikasiya haqqında" Qanunun və "İnternet telekommunikasiya xidməti göstərən operatorların və provayderlərin uçotunun aparılması Qaydası"nın tələblərini nəzərə alaraq, Azərbaycanda internet telekommunikasiya sahəsində xidmət göstərən operator və provayderlər, o cümlədən host provayderlər qeydiyyatdan keçməlidir.

Mənbə: report.az 28 Mart, 2023

## Dövlət Vergi Xidməti kod-paroldan istifadəni məhdudlaşdıracaq

İqtisadiyyat Nazirliyi Yanında Dövlət Vergi Xidmətinin məlumatına əsasən, gələn il yanvarın 1-dən etibarən Azərbaycanda vergi ödəyicilərinin vergi orqanının verdiyi kod-parolla elektron kabinetə daxil olmaq imkanları məhdudlaşdırılacaq.

Vergi ödəyicilərinin elektron kabinetə daxil olmaq, əmək müqaviləsi bildirişini elektron qeydiyyata almaq, vergi ödəyicisi kimi uçotda olan şəxslərə mal, iş və xidmətlərlə bağlı elektron qaimə-faktura göndərmək və digər elektron xidmətlərdən faydalanmaları üçün gücləndirilmiş elektron imzadan ("ASAN İmza") istifadə etməkləri zəruri olacaq.

Mənbə: xeberler.az 29 Mart, 2023

# Özbəkistan

## Özbəkistan 5G texnologiyasını təqdim edir

Layihənin birinci mərhələsi Daşkənd şəhərinin 5G şəbəkəsi ilə tam əhatə olunmasını, eləcə də rayon mərkəzlərinin qismən əhatə olunmasını nəzərdə tutur.

Layihə çərçivəsində Özbəkistan üzrə 3000-dən çox mövcud baza stansiyası ən müasir texnologiyalardan istifadə etməklə müasirləşdiriləcək, 2000-dən çox yeni baza stansiyası tikilib istifadəyə veriləcək.

Mənbə: kun.uz 11 Mart, 2023

## Özbəkistan “Skype” tətbiqinə girişə qoyulan məhdudiyyətləri aradan qaldırır

İKT-nin İnkişafı Nazirliyi bildirir ki, indi Özbəkistan vətəndaşları “Skype” tətbiqindən məhdudiyyətsiz istifadə edə bilərlər. Həmçinin məlum olub ki, Skype şəxsi məlumatlar haqqında qanunvericiliyi pozanların milli reyestrindən çıxarılıb. İKT-nin İnkişafı Nazirliyinin məlumatına görə, Özbəkistanda digər sosial şəbəkələr də tədricən öz işini bərpa edəcək.

Mənbə: kun.uz 23 Mart, 2023

# Qazaxıstan

## Qazaxıstanda İT xidmətlərinin həcmi kəskin şəkildə artıb

2022-ci ilin yanvar-dekabr aylarında kompüter proqramlaşdırması, o cümlədən konsaltinq və digər əlaqəli xidmətlərin həcmi 772,5 milyard tenge təşkil edib - bu, 2021-ci ilin eyni dövrü ilə müqayisədə pul baxımından 40,3% çoxdur. Rəqəmsal İnkişaf Nazirliyinin məlumatına görə, son iki ildə İT ixracı iki dəfə artıb.

Mənbə: profit.kz 3 Mart, 2023

## Qazaxstanlılar pasport və şəxsiyyət vəsiqəsi üçün özləri müraciət edə bilərlər

“Sənədləşmə Terminalı” innovativ layihəsində, müştərilər növbəsiz şəkildə xidmət sifariş edə və sənəd üçün uyğun fotonu özləri seçə biləcəklər. Pasport və şəxsiyyət vəsiqəsi xidməti Qazaxıstanda ən populyar xidmətlərdən biridir. Belə ki, ötən il Dövlət Xidmətləri Mərkəzlərinə xidmət üçün 2,3 milyondan çox vətəndaş müraciət edib. Vətəndaşlara xidmətin optimallaşdırılması, qəbulun vaxtının azaldılması üçün dövlət korporasiyası sənədlərlə bağlı müstəqil müraciət etməyə imkan verən terminal quraşdırıb.

Mənbə: kapital.kz 3 Mart, 2023

## Qazaxıstanda vətəndaşlar və bizneslər üçün bir sıra rəqəmsal xidmətlərin istifadəyə verilməsi planlaşdırılır

Bu il həyata keçirilməsi nəzərdə tutulan 66 rəqəmsal təşəbbüsün siyahısı hazırlanıb. Rəqəmsal inkişaf, innovasiya və aerokosmik sənaye nazirinin səsləndirdiyi təkliflər arasında əlilliyin müəyyən edilməsi üçün tibbi-sosial ekspertizanın rəqəmsallaşdırılması, məktəbəqədər təhsil müəssisələri üçün vahid rəqəmsal növbənin işə salınması, ferma heyvanlarının qeydiyyatı, orduya çağırışdan azad edilmə və ya müvəqqəti möhlət verilməsi prosedurunun avtomatlaşdırılması və notariat xidmətlərinin elektron formata keçirilməsi üçün istifadə oluna biləcək "Vet Mobile" tətbiqinin tərtibatı mövcuddur.

Mənbə: zakon.kz 25 Mart, 2023

## Qazaxıstanın İT startapları ən yaxşı kimi tanınıb

Bişkekdə "Mərkəzi Asiya Texnologiya Mükafatları 2023" mükafatlandırma mərasimi keçirilib və orada qaliblərin adları açıqlanıb. Qazaxıstan komandaları yeddi nominasiyadan üç nominasiya üzrə ən yaxşısı olub. Onlar baş mükafatı, ABŞ-ın Silikon Vadisinə səyahəti qazanıblar. Mərkəzi Asiya Texnologiya Forumu çərçivəsində keçirilən Mərkəzi Asiya Texnologiya Mükafatları müsabiqəsində iştirak etmək üçün 39-u Qazaxıstandan olmaqla, ümumilikdə 114 müraciət olub.

Mənbə: profit.kz 30 Mart, 2023

## Kənd sakinləri Kazpost şöbələrində dövlət xidmətlərindən istifadə edə biləcəklər

Dövlət xidmətlərinə və dövlət orqanlarına çıxış məntəqələrinin (kənd poçt şöbələrinin) açılması (e-Openish) üzrə iş təkcə kənd sakinləri üçün dövlət xidmətlərinin əlçatanlığına təminat verməyəcək, həm də rəqəmsal xidmətlərin və digər imkanların təşviqini təmin edəcək əsas layihədir. Bu il 100-ə yaxın belə məntəqə açılacaq; gələcəkdə isə iki minə yaxın kənd poçt şöbəsini əhatə etmək nəzərdə tutulur. İndi Kazpost təşkilati və hazırlıq işləri aparır, metodoloji və inteqrasiya proseslərini tənzimləyir.

Mənbə: profit.kz 30 Mart, 2023

# Qırğızıstan

## Amazon şirkətinin baş direktoru Bişkekdə İT biznes forumunda olub: "Mərkəzi Asiya qlobal İT mərkəzinə çevrilə bilər"

Bişkekdə çoxdan gözlənilən İT biznes forumu - Mərkəzi Asiya üzrə İT sənayesində ən böyük və əlamətdar tədbir keçirilir. Mərkəzi regionun tarixində ilk dəfə olaraq üç böyük texnologiya parkı - Qırğızıstandan Yüksək Texnologiyalar Parkı, Qazaxıstandan Astana Hub və İT Park Özbəkistan - qlobal miqyasda güc yaratmaq və ümumi maraqları təşviq etmək məqsədilə vahid platforma yaratmaq üçün birləşir.

Mənbə: limon.kg 24 Mart, 2023

## Qırğızıstanda rəqəmsal CASA (Mərkəzi Asiya, Cənubi Asiya) kommunikasiya xətlərinin tikintisinə başlanılıb

"Rəqəmsal CASA-KR" layihəsi çərçivəsində fiber-optik rabitə xətlərinin tikintisinə rəsmən start verilib. Bu barədə Qırğızıstanın Rəqəmsal İnkişaf Nazirliyi məlumat yayıb. Çuy vilayətinin Alamədinski rayonu, Baytik kəndində fiber-optik rabitə xətlərinin tikintisinə başlanılıb. Təşəbbüs Qırğızıstan Respublikasının Rəqəmsal İnkişaf Nazirliyi yanında Dünya Bankının "Digital CASA-KR"

layihəsinin birinci komponenti - "Regional Rəqəmsal Bağlantı İnfrastrukturunun genişləndirilməsi" çərçivəsində həyata keçirilir.

Mənbə: 24.kg 31 Mart, 2023


MAKING AN IMPACT THAT MATTERS since 1845

deloitte.az

Deloitte adı Deloitte Touche Tohmatsu Limited şəbəkəsinə daxil olan üzv şirkətlərdən birinə və ya bir neçəsinə və əlaqədar müəssisələrinə aid ola bilər. DTTL ("Deloitte Qlobal") və bu şəbəkəyə daxil olan hər bir üzv şirkət ayrı-ayrılıqda hüquqi şəxslər və müstəqil müəssisələrdir. DTTL müştərilərə xidmətlər göstərmir. Ətraflı məlumat üçün www.deloitte.com/about səhifəsinə daxil olun.

Deloitte qlobal səviyyədə audit və əminlik, konsaltinq, maliyyə, risk, vergi üzrə məsləhət xidməti və digər əlaqədar xidmətlər göstərən aparıcı markalardandır. 150-dən çox ölkədə və ərazidə xidmətlər göstərən üzv şirkətlər şəbəkəsi Fortune Global 500® üzrə beş şirkətdən dördünə öz xidmətlərini göstərir. Deloitte-un təxminən 415,000 peşəkar mütəxəssisinin təklif etdiyi fərq yaradan həllər haqqında ətraflı məlumat üçün www.deloitte.com/about səhifəsinə daxil olun.

Bu məlumatda yalnız ümumi informasiya əks olunur və Deloitte Touche Tohmatsu Limited şirkətlərindən, onun üzv şirkətlərindən və ya əlaqədar müəssisələrdən (birlikdə "Deloitte Şəbəkəsi") hər hansı biri bu məlumat vasitəsilə peşəkar məsləhətləşmə və ya xidmətlər təmin etmir. Maliyyə fəaliyyətinizə və ya müəssisənizə təsir göstərə biləcək hər hansı qərarlar qəbul etməzdən və ya tədbirlər görməzdən əvvəl peşəkar mütəxəssis ilə məsləhətləşmək daha məqsədəuyğundur. Deloitte Şəbəkəsinə daxil olan heç bir müəssisə bu məlumata istinad edən hər hansı şəxsin məruz qaldığı zərərə görə məsuliyyət daşımır.



8 Noyabr pr. 25E, Bakı Ağ Şəhər Ofis Binası
Bakı, AZ1025, Azərbaycan Respublikası



© 2023 Deloitte & Touche MMAC. Bütün hüquqlar qorunur.